# Azərbaycan xalqı ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərini unutmur və heç vaxt unutmayacaq



❒ ***Dekabrın 12-də ölkəmizdə keçirilən izdihamlı anım mərasimlərinin iştirakçıları AZƏRTAC-ın müxbirləri ilə müsahibələrində bu dahi şəxsiyyət haqqında ürək sözlərini dilə gətiriblər.***

Ulu öndər Heydər Əliyevin vəfatının 14-cü ildönümü ilə əlaqədar dekabrın 12-də səhər saatlarından başlayaraq, insanlar axın-axın Fəxri xiyabana gəlib, ümummilli liderin məzarı önündən keçiblər. Fəxri xiyabanda yaşanan izdiham xalqın öz böyük oğlunun xatirəsinə ehtiramını parlaq təcəssüm etdirir, ümummilli lider Heydər Əliyevə ümumxalq məhəbbətinin tükənməz və əbədi olduğunu göstərirdi.

Müasir müstəqil Azərbaycan dövlətinin banisi, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin xatirəsini yad etməyə gələnlər arasında Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, geniş ictimaiyyətin nümayəndələri – nazirliklərin, dövlət komitələrinin kollektivləri, mədəniyyət, təhsil, tibb müəssisələrinin işçiləri, müharibə və əmək veteranları, hərbçilər, idmançılar, müəllimlər, tələbələr, şagirdlər, hər yaşda olan insanlar vardı.

AZƏRTAC-ın müxbirləri anım mərasimlərində iştirak edən insanlardan müsahibələr alıblar. Onların hər biri müasir tariximizdə silinməz iz qoymuş bu böyük insan haqqında ürək sözlərini dilə gətirib, ümummilli liderin parlaq xatirəsinin yaddaşlarda daim yaşayacağına əminliyini bildirib.

Müsahibələri təqdim edirik:

**Sədaqət Vəliyeva (Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının**



**sədri, Milli Məclisin deputatı) deyib:** Ümummilli lider Heydər Əliyevin böyük səyləri, Vətənə və xalqa məhəbbəti, yüksək təşkilatçılıq bacarığı bütün dövrlərdə bəhrəsini verib. Bir zamanlar keçmiş Sovetlər İttifaqının geridə qalmış aqrar respublikası olan Azərbaycan ulu öndər Heydər Əliyevin gərgin əməyi sayəsində sənaye və kənd təsərrüfatının geniş inkişaf etdiyi qabaqcıl bir respublikaya çevrilmişdi. Bu, deməyə əsas verir ki, ulu öndər Heydər Əliyevin ilk dəfə siyasi hakimiyyətə gəlişi Azərbaycanda milli intibahın başlanğıc tarixidir.

Ulu öndərin hakimiyyəti dövründə respublikamızın ictimai, siyasi, iqtisadi, mədəni, mənəvi tərəqqisində misilsiz nailiyyətlər qazanılıb. Bütün varlığı ilə Vətəninə, xalqına bağlı olan Heydər Əliyev hələ bundan sonra onilliklər boyu Azərbaycan xalqına yol göstərəcək, fayda verəcək qiymətli irs yaradıb. Ümummilli lider hazırda aparıcı dünya dövlətlərinin hesablaşdığı respublikamızın hərtərəfli inkişafının əsasını qoyub. Ulu öndər Heydər Əliyevin ideyaları hazırda onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirilir, yeni-yeni uğurlara yol açır.

**Erkan Özoral (Türkiyənin Azərbaycandakı səfiri):** Heydər Əliyev türk dünyasının ən böyük liderlərindən biridir. O, Azərbaycanın böyük lideri olmaqla yanaşı, bu ölkənin qurucusudur. Heydər Əliyev Azərbaycanın hələ Sovet İttifaqının tərkibində olduğu vaxtlardan öz ölkəsinin gələcəyini qurmağa başlamışdı. O, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da ən çətin



günlərdə ölkəsinə sahib çıxaraq bugünkü səviyyəyə gətirən bir liderdir.

**Namiq Abdullayev (Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti, Olimpiya çempionu):** Ulu öndər idmanın



inkişafına, idmançılara daim qayğı ilə yanaşır və onların sosial şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı addımlar atırdı. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bütün dünyaya nümunə ola biləcək idman siyasəti bu gün onun layiqli varisi olan Prezident İlham Əliyev tərəfindən daha da zənginləşdirilir.

Hazırda Azərbaycanın hər yerində müasir tələblərə cavab verən infrastruktur yaradılıb. Olimpiya idman kompleksləri tikilib. Bu uzaqgörən siyasətin nəticəsidir ki, Azərbaycan idmanı beynəlxalq arenada layiqincə təmsil olunur, ölkəmiz irimiqyaslı yarışlara yüksək səviyyədə ev sahibliyi edir.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra idmanın inkişafı dövlət siyasətinin prioritet istiqamətindən birinə çevrilib. Qısa zamanda həyata keçirilən mühüm tədbirlərin nəticəsi olaraq idmançılarımız möhtəşəm qələbələrə imza atıblar. Azərbaycanın Olimpiya Oyunlarında qazandıqları möhtəşəm nailiyyətlər bu siyasətin real nəticələridir. Fəxr edirik ki, bu qələbələrdə güləşçilərimizin də xüsusi payı var.

**Nəzərbəy Hacıağayev (Türkiyənin Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən FONO qurumunun baş təhsil məsləhətçisi):** Ulu öndər Heydər Əliyevin



təhsil sahəsində əvəzsiz xidmətləri olub. Ölkəmizin, xalqımızın gələcəyini düşünən bu dahi şəxsiyyət gənclərə hər zaman böyük diqqət və qayğı ilə yanaşırdı. Ümummilli lider Heydər Əliyev respublikamıza rəhbərliyinin bütün dövrlərində sağlam, yüksək bilikli, dövlətə sahib dura biləcək gənc nəslin yetişməsinə çalışırdı.

Ulu öndər Azərbaycanın gələcəyinin gənclərlə bağlı olduğunu dönə-dönə vurğulayırdı. Ona görə də biz təhsil işçilərinin vəzifəsi gənc nəslin təlim-tərbiyəsini yüksək səviyyədə təşkil etmək, dahi şəxsiyyətin arzuladığı gəncliyin formalaşmasına nail olmaqdır.



**Vasib Əliyev (Ali Məhkəmənin əməkdaşı):** Ulu öndər Heydər Əliyev



Azərbaycanda müasir hüquq sisteminin əsaslarını qoyub. Onun rəhbərliyi ilə həyata keçirilən müdrik dövlətçilik siyasəti nəticəsində bu gün Azərbaycanda mütərəqqi və dünyəvi dəyərlərə uyğun islahatlar aparılıb. Demokratik, hüquqi dövlət qurulub, dönməz və dayanıqlı ictimai-siyasi sabitlik şəraitində qanunun aliliyinə və insan hüquq və azadlıqlarına real təminat verən vətəndaş cəmiyyəti formalaşıb. Ulu öndər Heydər Əliyevin qurub yaratdığı və əbədilik qazandırdığı gənc müstəqil Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafı sürətləndikcə ölkəmizdə yaşayan hər bir vətəndaşın hüquq və azadlıqları daha yüksək səviyyədə qorunur. Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar olması, milli dövlətçiliyimizin möhkəmləndirilməsi, ümumiyyətlə, həyatın bütün sahələrində köklü, hüquqi islahatların aparılması ulu öndərin adı ilə bağlıdır. Demokratik, hüquqi dövlət quruculuğu və onun əsas tərkib hissəsi olan məhkəmə-hüquq islahatları Heydər Əliyev siyasi kursunun layiqli varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Ağaxan Salmanlı (Xalq artisti):**



Heydər Əliyev mədəniyyət və incəsənət xadimlərinin yaradıcılığına xüsusi diqqət yetirərdi. Azərbaycanın incəsənəti, ədəbiyyatı, musiqisi, tarixi və arxitektura abidələri əsrlər boyu humanizm, gözəllik və mənəvi dəyərlərin rəmzləri olub. Bu dəyərlər əbədidir. Xalqın mədəni irsini toplayıb qorumuş şəxslərin adları insanların xatirəsində daim yaşayacaq. Heydər Əliyev azərbaycanlılar üçün məhz belə şəxsiyyətlərdəndir. Mədəniyyətimiz dahi liderin ideyalarından güc alır. Azərbaycan incəsənətinin inkişafına nail olmaq üçün Heydər Əliyev şairlərin, yazıçıların, bəstəkarların, kino və teatr xadimlərinin yubileylərinin dövlət səviyyəsində keçirilməsinə böyük əhəmiyyət verirdi. Ümummilli lider Heydər Əliyevin ideyaları xalqımızın rifahına xidmət edir. Heydər Əliyev müqayisəedilməz xidmətləri sayəsində əbədiyaşarlıq qazanıb və heç zaman unudulmayacaq.

**Məzahir Novruzov (Qarabağ müharibəsi əlili):** Ulu öndər Heydər



Əliyev Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də yüksək həssaslıqla yanaşır, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görürdü. Ulu öndər Heydər Əliyev həmişə deyirdi ki, Qarabağ əlilləri, veteranları Azərbaycanın ən layiqli övladlarıdır, onlar hər zaman cəmiyyətdə dərin hörmət və ehtirama layiqdirlər. Dövlətimiz həmişə əlilə, şəhid ailəsinə arxa, həyan olub. Biz də bu diqqət və qayğını düzgün qiymətləndirməli, gücümüz çatan işlərdən yapışmalıyıq. Azərbaycanın əldə etdiyi bütün uğurlara görə hər birimiz ümummilli liderə borcluyuq. Heydər Əliyev hər zaman qəlbimizdədir və Azərbaycan yaşadıqca, o da yaşayacaq.

* * *

Ulu öndərin xatirəsi Vətənini sevən, damarından azərbaycanlı qanı axan hər kəs üçün əziz və müqəddəsdir. Çünki Azərbaycanın müasir tarixi, milli dövlətçiliyimiz bu dahi şəxsiyyətin adı ilə bağlıdır. Xalqımız bütün şüurlu həyatını Azərbaycanın tərəqqisinə həsr etmiş böyük oğlunu ötən 14 il ərzində bir an belə unutmayıb.

Bu gün təkcə Bakıda deyil, Azərbaycanın bütün bölgələrində, həmçinin xarici ölkələrdə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş anım mərasimləri keçirilib.

Regionlarda keçirilən anım mərasimlərinin iştirakçıları AZƏRTAC-ın bölgə müxbirləri ilə söhbətlərində ulu öndərin Vətəni və xalqı qarşısında misilsiz xidmətlərini xatırladıb, bununla bağlı fikirlərini bölüşüblər.

**Yavuşva Simanduyev (Quba rayonundakı Qırmızı qəsəbədəki İsak Xanukov adına 1 saylı məktəbin direktoru):** Qubada yaşayan dağ yəhudiləri



dünya şöhrətli siyasi xadim ümummilli lider Heydər Əliyevin əziz xatirəsini qəlblərində yaşadır, onu daim ehtiramla anırlar. Təbii ki, bu, səbəbsiz deyil. Biz dağ yəhudiləri uzun illərdir Qırmızı qəsəbədə azərbaycanlılarla birlikdə sülh və əmin-amanlıq şəraitində yaşayırıq. Azərbaycandakı tolerant mühitdən çox məmnunuq. Bu tolerantlıq, dini dözümlülük dövlətimizin, Prezidentimizin apardığı siyasətin nəticəsidir. Bu siyasətin əsasını ulu öndərimiz qoyub. Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir.

Məktəbimizdə azərbaycanlılar, yəhudilər, ləzgilər, xınalıqlılar, ruslar və başqa xalqların nümayəndələri birlikdə təhsil alırlar. Müəllimlərimiz arasında da xeyli sayda dağ yəhudiləri var. İbtidai siniflərdə ivrit dili dərsləri tədris olunur. Bu, Azərbaycandakı tolerant mühitin göstəricisidir. Belə mənzərəyə başqa ölkələrdə nadir hallarda rast gəlinir. Bütün bunlara ulu öndər Heydər Əliyevin xidmətləri sayəsində nail olunub.

**Mətləb Həziyev (Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd sakini, Qarabağ müharibəsi veteranı):** Yaxşı yadımdadır,



Heydər Əliyev tez-tez cəbhə xəttinə gəlir, əsgərlərlə görüşürdü. Bu, bizi ruhlandırır, düşmən üzərində qələbəyə inam yaradırdı. Təsadüfi deyildi ki, öz Ali Baş Komandanına güvənən Azərbaycan Ordusu 1994-cü ilin əvvəllərində bir sıra əraziləri işğaldan azad edə bildi.

Mən uğurlu Horadiz əməliyyatının iştirakçılarından biriyəm. O vaxt tank bölüyündə taqım komandiri idim. Horadiz əməliyyatı zamanı qısa müddətdə 22 yaşayış məntəqəsini, o cümlədən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini düşməndən azad etdik. Biz keçmiş döyüşçülər ulu öndərin xidmətlərini daim minnətdarlıq hissi ilə xatırlayırıq.

Ötən ilin aprelində Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində Lələtəpə yüksəkliyinin işğaldan azad olunması Cocuq Mərcanlı kəndinin təhlükəsizliyini də təmin etdi. Prezident İlham Əliyevin sərəncamı ilə Cocuq Mərcanlı qısa müddətdə bərpa edildi və 23 ildən sonra insanlar öz doğma torpaqlarına qayıtdılar.

**Elman Cəfərli (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru):** 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında deputatların təkidi, xahişi və parlament binası önündə mitinq keçirən xalq kütlələrinin qəti tələbi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilən ulu öndər Heydər Əliyev Naxçıvanı erməni təcavüzündən qorudu.



Ermənistan tərəfindən blokadaya alınan muxtar respublikanın müdafiəsi, sosial-iqtisadi və ictimai-siyasi vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir çox mühüm addımlar atıldı.

Bu çətin və gərgin dövrdə Azərbaycanda müstəqil dövlət quruculuğunu həyata keçirə biləcək ümummilli siyasi qüvvənin - Yeni Azərbaycan Partiyasının (YAP) təməli də Heydər Əliyev tərəfindən qoyuldu. 1992-ci il noyabrın 21-də ulu öndər partiyanın Naxçıvan şəhərində keçirilən təsis konfransında yekdilliklə YAP-ın sədri seçildi. Bu partiya müstəqil dövlət quruculuğu konsepsiyasını uğurla reallaşdırmasında ümummilli liderimizin əsas siyasi istinadgahı oldu. Böyük öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə gördüyü misilsiz işlər xalqın yaddaşından heç vaxt silinməyəcək.

* * *

Fəxri xiyabana səhər saatlarından başlayan insan axını axşamadək davam etdi. Ziyarətçilər buraya həm də sonsuz qürur hissi və sarsılmaz inamla gəlirdilər. Çünki Azərbaycan Heydər Əliyev ideyalarının işığında sürətli inkişaf yolu keçib, dünyada söz və nüfuz sahibinə çevrilib. Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində ölkəmiz yeni–yeni qələbələrə imza atır, müstəqilliyimiz daha da möhkəmlənir, ictimai-siyasi sabitlik qətiyyətlə qorunub saxlanılır.

Dekabrın 12-də Fəxri xiyabanda yaşanan bu izdiham, bölgələrdəki anım tədbirləri bir daha göstərdi ki, xalqımızın Heydər Əliyevə olan sevgisi əbədi və sönməzdir. Ulu öndər bu gün mənən xalqı ilə birlikdədir, onun parlaq ideyaları təkcə bu günümüzün deyil, gələcəyimizin də qarantıdır.

***AZƏRTAC***